**AZƏRBAYCAN RESPUBLİKASI**
**VƏKİLLƏR KOLLEGİYASININ**
**DÜNYADAKI HƏMKARLARINA MÜRACİƏTİ**

**(Qoşma əlavə olunur)**

**Hörmətli həmkarlar!**

Diqqətinizə çatdırmaq istərdim ki, Ermənistan artıq 27 ildir Azərbaycan Respublikasının 20% ərazisini, yəni Dağlıq Qarabağ və onun ətraf rayonlarını işğal altında saxlayır. Belə ki, 1988-ci ildən başlayaraq xarici təsirlər altında Dağlıq Qarabağda yaşayan erməni əhalisi arasında separatist qruplar meydana çıxmış və Yerevandakı milliyətçi qruplarla birgə Dağlıq Qarabağ Muxtar Vilayətinin (bundan sonra DQMV) Ermənistana birləşdirilməsini tələb etmişlər. Bundan əlavə, Ermənistanda da yaşayan 300.000 etnik azərbaycanlı öz doğma yurtlarından qovularaq qaçqın vəziyyətinə salınmışdır. [1] [2]

1992-1994-cü illərdə Ermənistan yerli seperatist qüvvələr və xaricdən gətirilən muzdluların köməkliyi ilə DQMV-nin ətrafında yerləşən (DQMV-yə daxil olmayan) 7 rayonu işğal etmiş, nəticədə DQMV və ətraf rayonlarda yaşayan 1 milyona yaxın azərbaycanlı əhali məcburi köçkün düşmüş, minlərlə dinc sakin öldürülmüş, 26.02.1992-ci il tarixində Xocalı şəhərində soyqırım aktı törədilmişdir. [3] [4] [5]

Artıq 27 ildir ki, Azərbaycan ərazilərini işğal altında saxlayan Ermənistan Dağlıq Qarabağda seperatist qüvvələrdən istifadə etməklə heç bir dövlət tərəfindən tanınmayan, özünün tam nəzarətində olan “Dağlıq Qarabağ Respublikası” adlı qondarma rejim yaratmışdır.

Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkib hissəsi olması, onun və ətraf rayonların Ermənistan tərəfindən işğal edilməsi və nəzarətdə saxlanılması dünya dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilir. [6]

1993-cü ildə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı pislənir və silahlı birləşmələrin işğal edilmiş ərazilərdən çıxarılması tələb edilir. Qətnamələrdə BMT TŞ tərəfindən Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqlənir. [7]

BMT Baş Məclisi 1993-cü ildəki 85-ci plenar iclasında Azərbaycanda Qaçqınlara və Məcburi Köçkünlərə Təcili Beynəlxalq Yardım haqqında Qərar qəbul etmişdir. [8]

---

[1] https://www.hrw.org/reports/AZER%20Conflict%20in%20N-K%20Dec94_0.pdf
[2] https://epress.am/ru/2015/04/29/события-в-гугарке-как-громили-азербай.html
[3] https://www.hrw.org/news/1997/03/23/response-armenian-government-letter-town-khojaly-nagorno-karabakh
[4] https://www.nytimes.com/1992/03/03/world/massacre-by-armenians-being-reported.html?fbclid=IwAR0vvAkK4AyhAJZF320CrSWA7U_liqubWHk4jf9l055rAR_nMnX7-kJ9ElI
[5] https://www.unhcr.org/protection/convention/4bd7edbd9/azerbaijan-analysis-gaps-protection-internally-displaced-persons-idps.html?query=azerbaijan
[7] http://unscr.com/en/resolutions/822
http://unscr.com/en/resolutions/853
http://unscr.com/en/resolutions/874
http://unscr.com/en/resolutions/884
[8] https://digitallibrary.un.org/record/180200

1992-1996-cı illər ərzində BMT Təhlükəsizlik Şurasının Sədri və BMT-nin Baş Katibi münaqişə ilə bağlı bir sıra bəyanatlar verərək, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyini təsdiqləmiş və ATƏT-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həlli istiqamətindəki səylərini dəstəkləmişdir.

1996-cı ildən bəri, BMT ilə ATƏT arasında Əməkdaşlıq Qətnaməsində BMT Baş Məclisi Azərbaycan Respublikasının ərazi bütövlüyünü (Dağlıq Qarabağ və ətrafındakı ərazilər) bir daha təsdiqləmişdir.[9]

Avropa Şurası Parlament Assambleyası özünün 25.01.2005-ci il tarixli 1416 saylı qətnaməsində Dağlıq Qarabağ və ətraf ərazilərinin Ermənistan tərəfindən işğal edildiyini, Dağlıq Qarabağın seperatist qüvvələrinin Ermənistanın nəzarəti altında olduğnu təsdiq etmişdir. [10]

Avropa Məhkəməsinin 2015-ci ildə "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarında Ermənistanın Azərbaycan ərazilərinin işğalı və bu ərazilərdə insan hüquqlarının pozulmasına görə cavabdeh olduğu (məsuliyyət daşıdığı) təsdiq edilir. [11]

1992-cü ildə ATƏT özünün Minsk konfransında münaqişənin həlli üçün tərəflər arasında vasitəçilik missiyasını yerinə yetirmək və münaqişənin həlli ilə bağlı təkliflər hazırlamaq üçün "Minsk qrupu"nu yaratmışdır. [12]

---

[9] https://www.un.org/press/en/2008/ga10693.doc.htm
[10] https://pace.coe.int/en/files/17289
[11] https://hudoc.echr.coe.int/app/conversion/pdf/?library=ECHR&id=001-155353&filename=001-155353.pdf
[12] https://www.osce.org/minsk-group/108306




# *ARMENIAN versus MOSLEM*

By SCOTLAND LIDDELL

*The capture by the Bolsheviks of Baku, which is the capital of the Azerbaijan Republic, gives unusual interest to the following protest which has been addressed to us by Mr. Scotland Liddell from Tiflis, apropos of the article which appeared in our pages in reference to the Armenians of Karabagh.*

In The Graphic of February 21, an article is published under the heading, "The Armenians of Karabagh." The information, you state, was furnished by Mr. Tigron Nazarian, an Armenian, of course, so that one is not surprised to find it Armenian propaganda. And, alas! one is not surprised to find this propaganda false.

As regards the history, geography and natural riches of Karabagh I have nothing to say. But, as Nazarian's visit to London is in order that he can urge on the Peace Conference the Armenian request that Karabagh be included politically in the Armenian and not in the Azerbaijan Republic, and as the figures he gives regarding the population of Karabagh are of vital importance in this respect, I must point out that they are grossly untrue.

Nazarian says that there are 198,000 Armenians and 80,000 Tartars in Karabagh. Professor Schepotieff, an authority, with no political axe to grind, has proved in a recent article that the present population of Karabagh is 415,000 Mussulmans as compared with only 170,000 Armenians. But . . . so many innocent Mussulman peasants have recently been massacred by the Armenian troops that even Schepotieff's figures may be truthfully disputed. . . .

To-day the Armenian regular troops are carrying on a war against Mussulman partisans in Karabagh. For the bloodshed that is taking place, even as I write, the Armenians, and the Armenians alone, are to blame. Although the province of Karabagh was placed under Azerbaijan administration by the British authorities until such a time as the future status of the province would be decided by the Peace Conference, the Armenian leaders and agitators for a long time refused to acknowledge Mussulman rule and strove in every way to incite the peaceful Armenian population against the Azerbaijan Government.

This constant agitation and this provocation led on several occasions to fighting. In November of last year an agreement was signed in Tiflis between the Azerbaijan and Armenian Governments. By this it was arranged that all fighting would cease and that both sides would await in peace the Conference's decree The Azerbaijan Republic faithfully kept to this agreement. The Azerbaijan troops were withdrawn from Zangezour, but no sooner had this been done than the Armenians very treacherously attacked the Mussulman villages, massacred hundreds of innocent peasants, and within a few weeks had succeeded in destroying over forty Mussulman villages.

Azerbaijan has been very patient and long-suffering. But there is a limit to a Government's patience. War has for long seemed inevitable. Now, on March 22, the Armenians, taking advantage of the Mussulman festival of *Novruz Bairam*, and the fact that there were only insignificant Azerbaijan troops, for the purpose of keeping order in Karabagh, have again launched attacks on many Mussulman villages in the province. So far, only partisan troops have opposed them, but I hear on good authority that the Azerbaijan Government is despatching regular troops to the assistance of the unfortunate Mussulman population of the country, who are faced with the threat of complete extirpation at the hands of their "Christian" neighbours.

Armenian propaganda is excellent. Doubtless the many propagandists in England, France and America will take advantage of their losses in the present clash to further their pleas and greedy territorial claims. But we in Trans-Caucasia know what the truth actually is. Surely it is time that the British public knew it too?

**"The Graphic" newspaper. 8th may 1920.**

1994-ci ildə Ermənistan və Azərbaycan arasında atəşkəs rejimini təmin edən Bişkek protokolu imzalanmışdır. [13]

Minsk qrupununun ötən 27 il ərzində münaqişənin həlli ilə bağlı fəaliyyəti məhz Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə nəticəsiz qalmışdır. Ermənistan tərəfi Dağlıq Qarabağın "müstəqilliyi" şərti ilə münaqişənin həll edilə və işğal edilmiş digər ərazilərin boşaldıla biləcəyinə dair şantaj xarakterli, qeyri-hüquqi mövqe sərgiləmişdir.

Halbuki, Azərbaycan tərəfi dəfələrlə Dağlıq Qarabağ ərazisinə dünya təcrübəsinə əsaslanan yüksək səviyyədə muxtariyyət statusu verməyə hazır olduğunu, oradakı erməni əhalinin tam təhlükəsizliyinə, onların bütün vətəndaş hüquqlarından yararlanmalarına təminat verdiyini bildirmişdir.

Ötən 27 il müddətində atəşkəs rejimi Ermənistan silahlı qüvvələri tərəfindən dəfələrlə pozulmuş, işğal edilmiş ərazilərdən atılan atəşlər nəticəsində onlarla dinc sakin, o cümlədən biri cəmi iki yaşlı olmaqla uşaqlar həlak olmuşlar. [14]

Nikol Paşinyanın baş nazir postuna gəlməsindən sonra Ermənistan münaqişənin həlli ilə bağlı daha aqressiv mövqe sərgiləməyə, "Dağlıq Qarabağ Ermənistandır" kimi bəyanatlar verməklə, özü və həyat yoldaşı Dağlıq Qarabağda və işğal edilmiş digər ərazilərdə hərbi təlimlər təşkil etməklə və onlara qatılmaqla münaqişənin həlli ilə bağlı danışıqlar prosesinə ciddi zərbə vurmuşdur. [15]

Ermənistan rəhbərliyi həmçinin 2020-ci ilin 12 iyulunda Azərbaycanın Dağlıq Qarabağdan tam kənarda yerləşən Tovuz bölgəsinə hücum edərək Bakı-Tibilisi-Ceyhan neft kəmərini, Avropa ölkələrinə qaz nəql edən kəmərləri və böyük ipək yolunun bir parçası olan Bakı-Tibilisi avtomobil və dəmir yollarının keçdiyi əraziləri nəzarətə götürməyə çalışmış, sentyabr ayında isə Dağlıq Qarabağ ətrafında əlavə ərazilər işğal etməklə Azərbaycanı təslimçi sülhə, Dağlıq Qarabağın Ermənistana güzəştə gedilməsinə məcbur etməyə çalışmış, hər iki halda Azərbaycan ordusu Ermənistan silahlı qüvvələrinin hücumlarını dəf etmişdir.[16]

Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozaraq Azərbaycan Respublikasının yeni ərazilərini işğala cəhdi nəticəsində 27 sentyabrdan etibarən iki ölkənin silahlı qüvvələri arasında hərbi toqquşmalar başlamış və hazırda davam edir. Həmin tarixdən başlayaraq Azərbaycan Silahlı qüvvələri həmçinin işğal edilmiş əraziləri erməni silahlı birləşmələrindən və əraziyə Livan, Suriya və digər ölkələrdən gətirilmiş müzdlu terror dəstələrindən təmizləmə əməliyyatına başlamışdır. Ermənistan Silahlı qüvvələri tərəfindən bilavasitə Ermənistan ərazisindən və işğal altında olan Dağlıq Qarabağ ərazisindən istifadə edilməklə Azərbaycan Respublikasının Tovuz, Şəmkir, Goranboy, Daşkəsən, Naftalan, Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Ağcabədi, Mingəçevir, Yevlax, Xizi və Gəncə bölgələrində və şəhərlərində mülki əhalinin yaşayış yerləri intensiv raket hücumlarına məruz qoyulmuşdur.

6 oktyabrda isə Ermənistan Xəzər neftini Avropaya çatdıran Bakı-Tbilisi-Ceyhan boru xəttini hədəf almışdır.

09 oktyabr 2020-ci il tarixdə Moskva şəhərində humanitar atəşkəs barədə saziş imzalanmasına baxmayaraq Ermənistan tərəfindən 10 və 17 oktyabr gecəsi Azərbaycanın Gəncə və Mingəçevir şəhərləri raketlərdən atəşə tutulmuş, Gəncə şəhərində yaşayış binalarının raketlə vurulması nəticəsində 22 dinc sakin həlak olmuş, bir neçəsi uşaqlar olmaqla, 93 dinc sakin yaralanmış, 2 uşaq itkin düşmüş, yaşayış binaları dağılmışdır. 500 000-ə yaxın əhalisi ilə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhərində məhz mülki

---

[13] https://peacemaker.un.org/armeniaazerbaijan-bishkekprotocol94
[14] https://www.bbc.com/news/world-europe-40504373
[15] https://jam-news.net/nagorno-karabakh-protest-inauguration-president-armenian-leadership/
[16] https://en.trend.az/azerbaijan/karabakh/3268498.html

əhalinin sıx yaşadığı məntəqələr raket hücumlarına məruz qalmışdır. Ermənistanın Gəncə şəhərində mülki əhalinin sıx yaşadığı binaları raket atəşinə tutmaqda məqsədi əhali arasında kütləvi tələfat törətmək və təşviş hissi yaratmaq, bununla da güc yolu ilə Azərbaycana aid ərazilərdən yeni mövqeylər əldə etməkdir. Bu isə insanlıq əleyhinə yönəlmiş və müharibə cinayətlərinə əsaslandığından çoxsaylı insan tələfatına səbəb olur. [17]

heavily outnumbered and killed. More fleeing civilians kept on coming onto a scene of appalling carnage. A Khojali resident, Hijran Alekpera, told Human Rights Watch:

> By the time we got to Nakhichevanik it was 9:00 A.M. There was a field and there were many people who had been killed. There were maybe one hundred. I didn't try to count. I was wounded on th[is] field. Gajiv Aliev was shot and I wanted to help him. A bullet hit me in



> the belly. I could see where they were shooting from. I saw other bodies in the field. They were newly killed—they hadn't changed color.[23]

A few days later, a terrible aftermath greeted the reporters and investigators who came to these hillsides. Torn bodies littered the snowy ground. Anatol Lieven of *The Times* noted that "several of them, including one small girl, had terrible injuries: only her face was left." The Azerbaijani prosecutor Yusif Agayev saw powder around the gunshot wounds and concluded that many of the victims had been shot at point-blank range: "They were shot at close range. We went to the place where it happened. It was obvious to me as a specialist."[24] As well as those shot down, dozens of victims died of cold and frostbite in the woods. More than a thousand Khojali residents were taken prisoner, among them several dozen Meskhetian Turks, refugees from Central Asia.

There are varying estimates of how many Azerbaijanis were killed in or near Khojali. Probably the most reliable figure is that of the official Azerbaijani parliamentary investigation, which put the death toll at 485. Even taking into account that this number includes combatants and those who died of cold, it still dwarfs any body count of the Nagorny Karabakh war. The number of Azerbaijanis who returned fire was small; this could not excuse the clear targeting of hundreds of civilians, including children, in an open space and the shooting of defenseless people on the ground.[25]

Slowly the news got out that a massacre had taken place at Khojali. At first many in the outside world were reluctant to believe it because most international media coverage of the conflict had hitherto portrayed the Armenians as the main victims of the conflict, rather than aggressors. A self-justificatory newspaper interview given in April 1992 by the former Azerbaijani president Ayaz Mutalibov did not help. Mutalibov, seeking to minimize his own role in the failure to defend the

less people on the ground.[25]

Slowly the news got out that a massacre had taken place at Khojali. At first many in the outside world were reluctant to believe it because most international media coverage of the conflict had hitherto portrayed the Armenians as the main victims of the conflict, rather than aggressors. A self-justificatory newspaper interview given in April 1992 by the former Azerbaijani president Ayaz Mutalibov did not help. Mutalibov, seeking to minimize his own role in the failure to defend the
town, put the blame for the massacre on the Popular Front. His interview was much quoted in Armenia.[26]

Yet Armenians now do admit that many Azerbaijani civilians were killed as they fled Khojali. Some blame irregular Armenian fighters, acting on their own behalf. An Armenian police officer, Major Valery Babayan, suggested revenge as a motive. He told the American reporter Paul Quinn-Judge that many of the fighters who had taken part in the Khojali attack "originally came from Sumgait and places like that."[27]



Asked about the taking of Khojali, the Armenian military leader Serzh Sarkisian said carefully, "We don't speak loudly about these things." "A lot was exaggerated" in the casualties, and the fleeing Azerbaijanis had put up armed resistance, he claimed. Sarkisian's summation of what had happened, however, was more honest and more brutal:

> But I think the main point is something different. Before Khojali, the Azerbaijanis thought that they were joking with us, they thought that the Armenians were people who could not raise their hand against the civilian population. We were able to break that [stereotype]. And that's what happened. And we should also take into account that amongst those boys were people who had fled from Baku and Sumgait.

Sarkisian's account throws a different light on the worst massacre of the Karabakh war, suggesting that the killings may, at least in part, have been a deliberate act of mass killing as intimidation.

## "Black Garden: Armenia and Azerbaijan through Peace and War"

## By Thomas de Waal

---

[17] https://www.dailymail.co.uk/news/article-8849997/Ganja-missile-strike-kills-12-injures-40-Armenia-Azerbaijan-fight-escalates.html

Bu günə qədər 270-dək mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara gətirilib, 60 mülki şəxs öldürülüb, 327-dək mülki obyekt, 1704 ev, 90 çoxmənzilli yaşayış binaları Ermənistan silahlı qüvvələri tərəfindən həyata keçirilən terror aktları nəticəsində dağıdılıb. Ermənistan silahlı qüvvələrinin beynəlxalq humanitar hüquqa zidd olaraq mülki obyektləri və mülki əhalini hədəf alan bu hücumları davam etməkdə və təəssüf ki, hər gün yeni qurbanlar və dağıntılara səbəb olmaqdadır.















BMT-nin Baş Məclisinin 1974-cü il 14 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş "Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında Bəyannamə"də də vurğulanır ki, mülki əhaliyə, xüsusilə, əhalinin ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara saysız-hesabsız əzab-əziyyət gətirən hücum edilməsi qadağandır və belə hərəkətlər pislənməlidir. [18]

BMT-yə üzv olan dövlətlər qadınların və uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə protokolu və 1949-cu il Cenevrə konvensiyaları , həmçinin, silahlı münaqişələr dövründə insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquqi aktlarla üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməlidirlər.[19]

Bununla da, Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüquq normalarını açıq şəkildə pozur, müharibə cinayətlərini törətməkdə davam edir və biz Ermənistan dövlətinin bu cinayət əməllərini qətiyyətlə pisləyirik.

Azərbaycan Respublikasının Vəkillər Kollegiyası xarici ölkələrin vəkillər kollegiyalarına və hüquq cəmiyyətlərinə, beynəlxalq təşkilatlara və səfirliklərə müraciət edərək, Ermənistan dövləti tərəfindən törədilən cinayət əməlləri pisləməyə çağırır.

**Əlavə olunur:** Beynəlxalq media nümayəndələri və Ermənistan Respublikası rəsmilərinin səsləndirdiyi iddialara Azərbaycan Respublikası Vəkillər Kollegiyasının cavabı.

**Hörmətlə,**



**Anar Bağırov, h.ü.f.d.**

**Sədr**

[18] https://www.un.org/en/genocideprevention/documents/atrocity-crimes/Doc.19_declaration%20protection%20women%20armed%20conflict.pdf

[19] https://www.icrc.org/en/doc/assets/files/publications/icrc-002-0173.pdf

**Beynəlxalq KİV nümayəndələri və Ermənistan Respublikasının rəsmi şəxsləri tərəfindən səsləndirilən iddialarla əlaqədar aşağıdakıları qeyd etmək istəyirik:**

## 1. Müharibəni və ya döyüş əməliyyatlarını kim başladı?

Ermənistan hökuməti əhalisinin diqqətini pandemiya və iqtisadi problemlərin düzgün idarə edilməsindən yayındırmaq üçün Azərbaycanla sərhəd təxribatı yaratmalı idi. Bu səbəbdən, Ermənistan Azərbaycanın münaqişə zonasından çox uzaqda olan və yaxınlığından strateji boru kəmərləri keçən Tovuz rayonuna hücum etdi. İyul-sentyabr ayları arasında məğlub olan Ermənistan silah alaraq və PKK terrorçularını cəlb edərək Azərbaycana qarşı yeni bir müharibəyə hazırlaşdı. Bu strategiya müdafiə naziri David Tonoyanın Ermənistanı “səngərdən, daimi müdafiə vəziyyətindən xilas edəcək, hərbi əməliyyatları düşmən ərazisinə keçirmək üçün şərait yaradacaq “Yeni ərazilər üçün yeni müharibə” açıqlaması ilə də üst-üstə düşür. [1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birləşmiş Millətlər Təşkilatının 75-ci ildönümü iclasında Ermənistan hökumətinin hazırladığı potensial təxribatla bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırdı, BMT və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə çağırdı.[2]

“Livan, Suriya və İraqdan erməni mənşəli qaçqınlar gətirərək işğal altındakı ərazilərin demoqrafik göstəricilərini dəyişdirmək, qanunsuz olsa da, bir şeydir, lakin Dağlıq Qarabağı ABŞ və AB daxil olmaqla bütün Qərb ölkələri tərəfindən terror təşkilatı olaraq qəbul edilən PKK yaraqlıları ilə doldurmaq isə tamam başqa bir şeydir” [3], Eureporter-dən James Willson gərginləşmədən 4 gün əvvəl yazmış və Ermənistan hökumətinin planlaşdırdığı bu yeni təxribata işarə etmişdir.

Münaqişə başlamazdan əvvəl Azərbaycan tərəfindən hərbi qulluqçular üçün toplanışların və avtomobillərin qeydiyyata alınmasına dair iddialara gəldikdə, bu tədbirlər “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun[4] 45-ci və Nazirlər Kabinetinin 4 aprel 2006-cı il tarixdə təsdiq etdiyi “Hərbi nəqliyyat vasitələrinin uçot Qaydalarının” [5] 1.3-cü maddəsinə uyğun olaraq mütəmadi olaraq həyata keçirilir. Prezident İlham Əliyev dəfələrlə Ermənistanın yeni müharibəyə başlamaq istəyini qeyd etmişdir, bununla bağlı hərbi texnikanın qeydiyyatı və hərbi qulluqçular üçün təlimlər yalnız müdafiə məqsədi daşıyır və qeyd olunan hüquqi aktların tələblərinə cavab verir.

## 2. Muzdlular hansı tərəfdə iştirak edir?

### a) Beynəlxalq öhdəliklər.

Azərbaycan muzdluların işə götürülməsinə, istifadəsinə, maliyyələşdirilməsinə və təliminə qarşı 1989-cu il Konvensiyasına 1997-ci ildə qoşulub. Bundan başqa, muzdluların cəlb edilməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə də qadağan edilmişdir (Cinayət Məcəlləsinin 114-cü maddəsi). Bu səbəbdən, muzdluların Azərbaycan ordusuna cəlb edilməsi ilə bağlı hər hansı ittiham əsassızdır. Azərbaycan beynəlxalq və daxili qanunvericilikdən irəli gələn beynəlxalq və daxili öhdəliklərini hər zaman yerinə yetirmiş və yerinə yetirməyə davam edəcəkdir. Ermənistan və onun tərəfdarları qeyd olunan ittihamlarla bağlı hər hansı sübut təqdim edə bilməmişdir.

---

[1] https://www.euractiv.com/section/azerbaijan/opinion/caucasus-armenias-new-war-for-new-territories/
[2] https://en.president.az/articles/42798
https://youtu.be/MxifMSaLtkg
[3] https://www.eureporter.co/frontpage/2020/09/23/pkks-involvement-in-the-armenia-azerbaijan-conflict-would-jeopardize-european-security/
[4] http://www.e-qanun.az/framework/23021
[5] http://e-qanun.az/alpidata/framework/data/11/f_11665.htm

Digər tərəfdən, Azərbaycandan fərqli olaraq, Ermənistan sözügedən Konvensiyanın tərəfi deyil, bu səbəbdən Ermənistanın muzdluların cəlb edilmənəsi ilə bağlı öhdəliyi mövcud deyil. Müharibə başlamazdan əvvəl beynəlxalq mətbuat beynəlxalq ictimaiyyəti Ermənistan tərəfindən PKK terrorçularının və Suriyanın erməni mənşəli muzdlularının cəlb edilməsinə diqqət göstərməyə çağırıb. Rusiya mətbuatı məlumat verir ki, erməni mənşəli ABŞ, Fransa və Rusiya vətəndaşları Ermənistan tərəfində Azərbaycana qarşı döyüşürlər[6] və Ermənistan rəsmiləri də müdafiə haqqında qanuna müvafiq dəyişikliklər edərək digər ölkələrin erməni mənşəli vətəndaşlarını bu münaqişəyə qoşulmağa çağırır. [7] [8]

### b) Avropanın enerji təhlükəsizliyi ilə bağlı təhdidlər

Azərbaycan terrorçuların cəlb edilməsinin Avropanın enerji təhlükəsizliyi ilə yanaşı bütün regionun təhlükəsizliyinə də təhlükə yaradacağının fərqindədir. Azərbaycan TAP, TANAP, Bakı Tbilisi Ceyhan (BTC), Bakı-Tbilisi-Supsa, Bakı-Novorossiysk və Cənubi Qafqaz boru kəməri kimi layihələri ilə Avropanın enerji təhlükəsizliyində böyük rol oynamaqdadır və səbəbdən də bu layihələrin həyata keçirilməsini təhdid edəcək hər hansı bir hərəkətdən çəkinməkdə maraqlıdır. Bununla belə, Ermənistan Tovuz rayonunda (əsasən neft və qaz boru kəmərlərinin yaxınlığında) iyul ayında etdiyi təxribatlarla, PKK terrorçularını cəlb etməsi, BTC və Bakı-Novorossiysk boru kəmərinə raket hücumları ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində gələcək rolunu təhlükə altına salmaqda çox maraqlıdır.

Ermənistan 6 oktyabrda BTC boru kəmərinə ziyan vurmaq üçün kasetli raket atdı və Bakı-Novorossiysk boru kəmərinə raket zərbələri endirdi, lakin cəhdləri uğursuz oldu. Belə bir hücumun müvəffəqiyyətli olması halında vacib boru kəmərlərinin işində fasilələr baş verə, nəticədə milyonlarla avropalının etibarlı enerji mənbələrinə çatımlılığına maneələr yarana bilər, eyni zamanda belə bir hücum ekoloji fəlakətə səbəb olacaqdır. [9]

### c) Hərbi potensialın müqayisəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq mətbuat təmsilçilərinə verdiyi müsahibələrində dəfələrlə bildirdiyi kimi, Azərbaycan ordusu 100000 döyüşçüdən ibarətdir[10] və ümumi hərbi personalının sayı 426000-i keçir[11], buna görə də muzdlu döyüşçülərin cəlb edilməsinə ehtiyac da yoxdur. Azərbaycanın mövcud hərbi personal potensialı 3000000-dan çoxdur, Ermənistanda isə bu rəqəm yalnız 809000 nəfərdir[12]. Azərbaycan və Ermənistanın hərbi gücünə dair bu müqayisə[13] tərəflərdən hansının muzdluların cəlb edilməsinə ehtiyacının olduğunu ortaya qoyur.

### d) Qabanlar yeyib

Suriyalı muzdluların iştirakına dair bir dəlil təqdim edə bilməyən Ermənistan Müdafiə Nazirliyinin sözçüsü, cəsədlərin Suriyaya geri göndərildiyini və ya Araz çayının ətəyində qabanlar tərəfindən yeyildiyini iddia etmişdir.[14]

### e) İddia olunan dəlillər

---

[6] https://ura.news/articles/1036281271
[7] https://en.trend.az/azerbaijan/politics/3316547.html
[8] https://www.liberation.fr/france/2020/10/11/de-marseille-a-erevan-un-militant-marque-au-front_1802057
[9] https://www.euractiv.com/section/azerbaijan/opinion/attacks-by-armenia-against-azerbaijani-civilians-and-critical-infrastructure-should-not-be-overlooked/
[10] https://menafn.com/1100968687/We-have-no-foreign-mercenaries-President-Aliyev
[11] https://www.globalfirepower.com/country-military-strength-detail.asp?country_id=azerbaijan
[12] https://armedforces.eu/compare/country_Azerbaijan_vs_Armenia
[13] ibid.
[14] https://news.am/rus/news/607842.html

Ermənistan və onun tərəfdarları muzdluların iştirakı ilə bağlı dəlillərə sahib olduqlarını yalnız iddia etmiş, lakin heç birini açıqlamamışlar.

Ermənistan Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkinin muzdluların Azərbaycan tərəfdən iştirakını bəyan etdiyini iddia etsə də, bu, reallığı əks etdirmir. Bəyanata nəzər yetirsəniz[15], onun yalnız Dağlıq Qarabağ bölgəsində muzdluların mövcud olduğunu və hansı tərəfdə döyüşdüklərini açıqlamadığını görə bilərsiniz.

Bununla belə, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti bölgəyə erməni separatçıları ilə döyüşmək üçün gələn iki PKK terrorçusu arasındakı dialoqun səs yazılarını yayımlamışdır. [16]

“Ələ keçirilmiş danışıqlara görə, terrorçular Ermənistan tərəfindəki təhlükəli vəziyyəti və çoxsaylı itkiləri müzakirə edirlər. Onlar Azərbaycan tərəfinin pilotsuz təyyarələrdən necə səmərəli istifadə etdiyindən, müharibə bölgəsinə gəldikləri və ermənilər tərəfindən aldadıqları üçün peşman olduqlarından da danışırlar. Yuxarıda qeyd edilən materiallar təqdim olunur,” Xidmətin məlumatında deyilir.[17]

Bunun əlavə, Azərbaycan Respublikasının rəsmiləri dəfələrlə Ermənistanın tərəfindəki muzdluların iştirakını sübut edən bir çox foto və video görüntülərin olduğunu bildirmişlər.

Müdafiə Nazirliyinin mətbuat katibi Anar Eyvazov açıqlamasında Ermənistan ordusunun itkiləri arasında tapılan cəsədlərin bir hissəsinin Suriyadan gələn erməni əsilli muzdlulara aid olduğunun müəyyən edildiyini bildirmişdir. [18]

Onu da qeyd etmək lazımdır ki, Ermənistan muzdluların və terrorçuların cəlb edilməsi ilə bağlı uzunmüddətli təcrübəyə malikdir və bu hallar 1990-cı illərdə Dağlıq Qarabağ müharibəsi zamanı da baş vermişdir. Hətta Sovet dövründə də Rusiya və Ermənistan kürdlərdən istifadə etmiş, 1923-1929-cu illərdə Dağlıq Qarabağ bölgəsində Azərbaycan, Ermənistan və İrandan gətirilən kürdlərin yerləşdirilməsi üçün Qırmızı Kürdüstan muxtar vilayəti yaradılmışdır.[19]

## 3. Dinc sakinlərin atəşə tutulması və mədəni abidələrin hədəf alınması

Ermənistan rəsmiləri müxtəlif beynəlxalq qanunvericiliyə istinad etməklə kifayətlənmiş, lakin , Azərbaycan tərəfindən onların hansı hallarda pozulduğunu göstərməmişlər. Ermənistanın mülki şəxslər arasında itkilərlə bağlı iddialarına baxmayaraq, Azərbaycanda qarşıdurmanın başlamasından bəri çoxlu sayda öldürülən və yaralanan var.

Ermənistanın beynəlxalq qanunvericiliyi necə pozduğuna dair aşağıdakı faktları təqdim edirik:

### a) Müharibə zamanı mülki şəxslərin qorunması haqqında Konvensiyanın 3-cü maddəsi

Baş nazir Nikol Paşinyanın baş müşaviri Vaqarşak Harutyunyan 8 oktyabrda Rusiyanın Rusiya-1 telekanalında yayımlanan "Vesti" televiziya şousuna verdiyi müsahibədə Ermənistanın məqsədyönlü şəkildə Azərbaycanın dinc şəhərlərini bombardman etdiyini və aralarında çaxnaşma yaratmaq üçün mülki insanları hədəf aldığını bildirmişdir.[20]

---

[15] http://www.svr.gov.ru/smi/2020/10/o-situatsii-vokrug-nagornogo-karabakha.htm
[16] https://thefrontierpost.com/dialogue-of-pkk-terrorists-fighting-for-armenia-intercepted-by-azerbaijani-intelligence/
[17] ibid
[18] https://www.aa.com.tr/en/asia-pacific/azerbaijan-armenian-syrian-mercenaries-helping-armenia/1988447
[19] https://www.eupoliticalreport.eu/pkks-involvement-in-the-armenia-azerbaijan-conflict-would-jeopardise-european-security/
[20] https://caspiannews.com/news-detail/pashinyans-advisor-confirms-armenias-deliberate-attacks-on-azerbaijani-civilian-settlements-2020-10-9-0/

Bu açıqlama, Ermənistanın mülki insanları hədəf almağı öz dövlət strategiyasına çevirdiyini və məqsədyönlü şəkildə hərbi cinayətlər törətdiyini etiraf etdiyini izah edir. Münaqişənin başlamasından bu günədək, Ermənistan Gəncə, Mingəçevir, Bərdə, Naxçıvan, Tərtər, Beyləqan, Xızı-Abşeron bölgəsi kimi cəbhə bölgəsindən uzaq olan, əhalinin sıx olduğu yerləri, strateji əhəmiyyətli mülki və enerji infrastrukturunu atəşə tutmuşdur. Dinc sakinlərə edilən bu hücumlar nəticəsində 56-dan çox mülki şəxs öldürülmüşdür.

Rus hərbi ekspert İqor Korotçenko, Yerevanın Azərbaycan şəhərlərini atəşə tutaraq Bakını qarşılıq verməyə təhrik etdiyini bildirmişdir. Yerevan hərbi əməliyyatların yalnız Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsi ərazisində deyil, Ermənistanın özündə də aparıldığını sübut edə bilərsə, Rusiyadan hərbi dəstək tələb edə bilər. [21]

Ermənistan daima bu münaqişəni genişləndirməyə, Azərbaycanı Ermənistan ərazilərini atəşə tutmağa təhrik etməyə, bununla da Rusiyanı Kollektiv Təhlükəsizlik Müqaviləsinə əsasən bu münaqişəyə cəlb etməyə çalışmaqdadır. 16 oktyabrda Naxçıvan Muxtar Respublikasına qarşı raket hücumu[22] Ermənistanın 1921-ci il tarixli Qars və Moskva müqavilələrinə əsasən Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təminatçısı olan Türkiyəni münaqişəyə cəlb etmək cəhdini əks etdirir. Bu yolla Ermənistan münaqişəni genişləndirərək Rusiya və Türkiyəni qarşı-qarşıya qoymağa çalışır.

**b) Xankəndində (Stepanakert) aparılan əməliyyatlar qarşılıq olaraq Gəncəni atəşə tutmaq**

Beynəlxalq media nümayəndələri və erməni rəsmilər Ermənistanın Gəncəyə hücumunu Azərbaycanın Xankəndidəki (Stepanakert) hərbi əməliyyatları ilə əsaslandırdılar. Ancaq bu iki hal arasındakı aşağıdakı fərqləri diqqətinizə çatdırmaq istəyirik:[23]

i) Gəncə təxminən 500000 nəfərlik əhali ilə Azərbaycanın ən böyük ikinci şəhəridir. Digər tərəfdən, Xankəndi (Stepanakert) Azərbaycanın beynəlxalq səviyyədə tanınan və Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yerləşir və əhalisi 55.200 nəfərdir.

ii) Gəncə əhalisinin münaqişə zonasından 100 km aralıda yaşamasına baxmayaraq, Xankəndi (Stepanakert) münaqişənin zonasının mərkəzində yerləşir.

iii) Gəncə sakinləri münaqişə zonasından kənarda yaşadıqları üçün potensial hücumdan xəbərdar olmamışlar və bir neçə hücumdan biri tərəflər arasında humanitar atəşkəsin əldə edilməsindən dərhal sonra baş vermişdir. Ən böyük iki hücum insanlar yatdığı zaman – gecə vaxtı baş vermişdir. Xankəndi (Stepanakert) sakinləri isə əvvəlcədən Azərbaycan Respublikası tərəfindən işğal olunmuş ərazilərdə yerləşən hərbi obyektlərin hədəf alınacağı barədə xəbərdar edilmiş və hər hansı bir zərərin qarşısının alınması üçün sakinlərdən şəhəri tərk etmələri istənilmişdir.

iv) Əhalinin sıx yaşadığı ərazi (Gəncə) gecə yarısı Ermənistan tərəfindən, əvvəlcədən heç bir xəbərdarlıq edilmədən, ballistik raketlərlə atəşə tutulmuş, nəticədə günahsız insanlar ölmüş və yaralanmışdır. Halbuki Xankəndində Azərbaycan qüvvələrinin verdiyi xəbərdarlıqlardan sonra həyəcan siqnalları səslənir və mülki şəxslərə sığınacaq tapmağa və ya ərazini tərk etməyə kifayət qədər vaxt verilir.

**c) 18 oktyabr 1907-ci il tarixli "Quru müharibəsinin qanun və adətləri haqqında" Haaqa Konvensiyasının 25-ci maddəsi**

Azərbaycan Ermənistana bir dəfə də olsun atəş açmayıb, bütün əməliyyatlar beynəlxalq səviyyədə tanınmış ərazilərində bu bölgələri azad etmək məqsədi daşıyır. Prezident İlham

[21] https://caspiannews.com/news-detail/pashinyans-advisor-confirms-armenias-deliberate-attacks-on-azerbaijani-civilian-settlements-2020-10-9-0/
[22] https://www.aa.com.tr/en/asia-pacific/armenia-launches-rocket-attack-on-ordubad-nakhchivan-/2008475
[23] https://twitter.com/nargismag/status/1317874709841780737?s=19

Əliyev dəfələrlə bəyan etmişdir ki, dövlət müharibə meydanında Ermənistana cavab verir, biz mülki insanlarla mübarizə aparmırıq. [24]

Digər tərəfdən, Ermənistan qəsdən və məqsədyönlü şəkildə münaqişə zonasından uzaqda yaşayan mülki insanları hədəf alır.

**d) 09 dekabr 199-cu il tarixli “"Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında” Konvensiya**

Ermənistan humanitar yardım adı altında alınan vəsaiti yeni ballistik silahlar almaq və Azərbaycanda günahsız şəxslərə qarşı cinayətlər törətmək üçün istifadə edir. Bundan əlavə, Ermənistan Respublikası terrorizmi dövlət səviyyəsində dəstəkləyir və dövlət siyasətinə çevirir. Müxtəlif ölkələrdə terror aktları törətmiş 13-dən çox erməni terror təşkilatı var ki, bunlardan biri də Ermənistanın Azadlığı uğrunda Erməni Gizli Ordusudur (ASALA). Livan vətəndaş müharibəsi zamanı 1975-ci ildə Livanın Beyrut şəhərində yaradılan ASALA yüzlərlə qanlı terror aktı törətməkdə günahlandırılır. [25] CIA, ASALA-nı “davam edən beynəlxalq təhlükə” olaraq müəyyən edir.[26]

**e) 12 avqust 1949-cu il tarixli “Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında” Cenevrə Konvensiyasının 1 saylı protokolu**

Ermənistandan fərqli olaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyi rəsmi olaraq Azərbaycan Ordusunun mülki əhalini, mülki obyektləri və mülki infrastrukturu hədəf almadığını bildirmiş və işğal altındakı ərazilərdəki mülki əhalinin hərbi obyektlərdən uzaq durması barədə çağırış etmişdir.

Nəzərə alınmalıdır ki, Dağlıq Qarabağ Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan ərazisidir, bu səbəbdən Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağa səfər etmək qanunsuzdur. Ermənistan jurnalistləri, onların aydın şəkildə seçilməsi üçün lazımi tədbirlər görmədən bu əraziyə dəvət etməklə həyatlarını təhlükəyə atmaqdadır. "Ermənistanın bəzi hallarda jurnalistləri və digər media nümayəndələrini müharibə bölgəsinə cəlb etməsi və onları döyüşçülərdən aydın şəkildə ayırmaq üçün qəsdən lazımi tədbirləri görməməsi xüsusi narahatlıq doğurur" Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bildirmişdir.[27]

**f) Erməni kilsəsinin atəşə tutulması ilə bağlı iddialar**

Ermənistan Azərbaycanı erməni kilsəsinin atəşə məruz qalması ilə bağlı qınasa da, Ermənistan 11 oktyabr 2020-ci il tarixdə Gəncə şəhərinə qarşı həyata keçirdiyi raket hücumları ilə Rus Pravoslav Kilsəsinə ziyan vurmuşdur.[28]

Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli, dünyəvi və müxtəlif dini inancların mövcud olduğu bir ölkədir. Azərbaycanın mərkəzindəki erməni kilsəsinin hələ də fəaliyyət göstərməsinə baxmayaraq, Ermənistan işğal altında olar ərazilərdəki məscidləri tövləyə çevirmişdir.

Ermənistanın kilsənin atəşə məruz qalması ilə bağlı iddiası din faktorundan istifadə edərək bu münaqişəni dini müharibəyə çevirmək üçün uğursuz cəhddən başqa bir şey deyil.

---

[24] https://azertag.az/en/xeber/President_Ilham_Aliyev_We_are_responding_to_them_on_the_battlefield_we_are_avenging_and_will_continue_to_avenge_the_deaths_of_innocent_civilians_on_the_battlefield-1616413

[25] https://www.aa.com.tr/en/politics/ypg-pkk-forms-new-armenian-terror-group-in-syria/1461899

[26] https://www.cia.gov/library/readingroom/docs/CIA-RDP85T00283R000400030009-2.pdf

[27] https://tass.ru/mezhdunarodnaya-panorama/9658831

[28] https://en.trend.az/azerbaijan/politics/3316688.html

## 4. Kaset tipli hərbi sursatların istifadəsi

Qeyd etmək istərdik ki, Ermənistanın Azərbaycanın qərb zonasında yerləşən Yevlax rayonundakı BTC xəttinə atdığı kaset tipli raket boru kəmərindən cəmi 10 metr aralıya düşmüş və 300-dən çox kiçik raketlər səpələnmişdir.[29]

Nəzərə alınmalıdır ki, "Artsax Respublikası" Ermənistanın özü də daxil olmaqla dünyanın heç bir ölkəsi tərəfindən tanınmayan qondarma bir rejimdir. Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinə əsasən, Azərbaycanın özünümüdafiə hüququ var və bu hüquq bütün işğal olunmuş ərazilər azad olunana qədər davam edə bilər.[30]

[29] https://www.spglobal.com/platts/en/market-insights/latest-news/natural-gas/100720-major-caucasus-oil-gas-pipelines-unaffected-by-rocket-attack-azerbaijans-socar
[30] https://www.aa.com.tr/en/azerbaijan-front-line/azerbaijan-has-right-to-reclaim-its-land-say-experts/1994253